*Nicat Rəsulzadə**

# Mülki Prosesdə Ərizə Formalarının Tətbiq Edilməsi: Alman Hüququndan Baxış

***Annotasiya***
*Mülki mübahisələrin say çoxluğu məhkəmələrin iş yükünün azaldılmasını zəruri edir. Bu səbəbdən Azərbaycan Respublikası da daxil olmaqla, digər ölkələrdə bu prosesin sürətləndirilməsi və sadələşdirilməsi istiqamətində müxtəlif islahatlar aparılır. Həmin islahatların siyahısına tərəflərin təqdim etdiyi iddia və qarşılıqlı iddia ərizələrinin strukturlaşdırılması da aiddir. Bütün növ yeniliklərdə olduğu kimi, burada da tətbiq zamanı müəyyən risklərin yaranması ilə bağlı ehtimallar mövcuddur. Onların siyahısına ədalət mühakiməsinə çıxış prinsipi, prosesin şəffaflığının təmin edilməsi və digər əlaqəli məqamlar aiddir. Məqalə alman qanunvericiliyində müvafiq islahatların keçirilməsi zamanı ortaya çıxan problemli məqamlar və onlara münasibətdə sərgilənən yanaşmaları təhlil edir.*

***Abstract***
*The number of civil disputes makes it necessary to lessen the burden of courts. For this reason, diverse reforms are being made in various countries, including the Republic of Azerbaijan, in the direction of speeding up and easing the procedure. Structuring of claims and counterclaims submitted by the parties belong to this list. As with all types of novelties, there is a possibility of certain risks during the implementation stage. It includes ensuring the principle of access to justice and the transparency of the process among other relevant matters. The article analyses the controversial issues that emerged during the relevant reforms in German legislation and the approaches taken in relation to them.*

## Mündəricat

Giriş ....................112
I. Strukturlaşdırma ....................113
A. Tərəflərin ərizələrinin tərtib edilməsi ....................114
B. Horizontal strukturlaşdırma ....................115
C. Şablonlar və onların tətbiq dairəsi ....................115
II. Tənqid və risklər ....................116
A. Texniki imkanların tətbiqi ....................117
B. Şablonların tətbiqinin ədalət mühakiməsinə çıxışa təsiri ....................118
C. Sanksiyanın nəzərdə tutulmaması ....................118
Nəticə ....................119

* Martin Luther adına Halle-Wittenberg Univesitetinin hüquq üzrə fəlsəfə doktorluğu üzrə namizədi.

# Giriş

Məhkəmə mübahisələrinin həll edilməsi zamanı prosesin yazılı hissəsi əhəmiyyətli rol oynayır. Həmin hissənin əsas məqamlarından biri kimi isə iddia ərizəsinin hazırlanıb təqdim edilməsi göstərilə bilər. Ərizələr, adətən, eyni formada yazılmır və hətta bəzi hallarda cari proses üçün əhəmiyyətsiz olan məlumatları da özündə ehtiva edir.[1] Belə ki, iddia ərizələrində dolayı və birbaşa aidiyyəti ola biləcək bütün iddiaların, həmçinin faktların toplanması tez-tez qarşılaşılan bir haldır.[2] Bunun səbəbi isə, bir qayda olaraq, məhkəmə baxışı başlanıldıqdan sonra yeni faktların və sübutların təqdim edilməsinin istisna edilməsidir.[3]

Bu isə, öz növbəsində, tərəflərin, məhkəmənin və hətta bəzən vəkillərin də çaşqınlığına səbəb olur, çünki müəyyən hallarda iddianın tam fərqli və ya yanlış istiqamətdə davam etdirilməsi ilə nəticələnə bilir. Göstərilən problemin həlli üçün isə bəzi Avropa İttifaqı ölkələrində iddiaların strukturlaşdırılması tələbi irəli sürülmüşdür.[4] Strukturlaşdırma vasitəsilə yazılı sənədlərin kəmiyyəti azala, xüsusən də mürəkkəb məsələlərdə proses sadələşdirilə, həmçinin prosesin səmərəliliyinin artırılmasına nail oluna bilər.

Milli qanunvericilik də eyni perspektivdən çıxış edərək Azərbaycan mülki prosessual hüququna bənzər yeniliyi təqdim etmişdir. Belə ki, 9 iyul 2021-ci il tarixli Qanunla Mülki Prosessual Məcəlləyə (bundan sonra AR MPM) əsaslı dəyişikliklər edilmişdir.[5] Bunların sırasına apellyasiya və kassasiya şikayətlərinin verilməsi zamanı formaların istifadə edilməsi məcburiyyəti aiddir. Belə ki, AR MPM-in 361.1, 406.1 və 407.1-ci maddələrində müvafiq şikayətin verilməsinin forması kimi həmin şablon formaların tətbiq edilməsi məcburi edilmişdir. Hər iki instansiyada istifadə edilən forma AR MPM-in müvafiq olaraq 2 və 3 saylı Əlavələrində göstərilmişdir. Həmçinin 363.1.1-1 və 408.1.1-ci maddələrinə əsasən, forma tələbinin pozulması hər iki instansiyada ərizənin geri qaytarılması üçün əsasdır.

AR MPM-in 10-1-ci maddəsinə uyğun olaraq, elektron məhkəmə sisteminin tətbiq edildiyi məhkəmələrdə müvafiq formalar elektron qaydada təqdim edilməlidir. Eyni yanaşma kassasiya şikayətlərinin təqdim edilməsi zamanı da müşahidə edilir. Bununla belə, Azərbaycan qanunvericiliyində

[1] Bax: Martin Zwickel, Die digitale Strukturierung und inhaltliche Erschließung zivilprozessualer Schriftsätze im Spannungsfeld zwischen Parteiherrschaft und Richtermacht (2018); Almuth Buschmann, Anne-Christin Gläß, Hans-Henning Gonska, Markus Philipp, Ralph Zimmermann, Digitalisierung der gerichtlichen Verfahren und das Prozessrecht, 180 (2018).
[2] Rolf Bender, Jürgen Schwarz, Strukturierter Parteivortrag und elektronische Akte, 372 (1994).
[3] Azərbaycan Respublikasının Mülki Prosessual Məcəlləsi, mad. 167.1.2, 167.1.10, 372.4 (1998); Alman Mülki Prosessual Məcəlləsi ("Zivilprozessordnung"), § 296 (1887). Burada bax: https://www.gesetze-im-internet.de/zpo (son baxış 26 noyabr 2022).
[4] Bu qayda fransız hüququnda Mülki Prosessual Məcəllənin ("Code de procédure civile") 753-cü maddəsində, ingilis hüququnda Mülki Prosessual Qaydaların ("Civil Procedure Rules") 16-cı bölməsində müşahidə edilir.
[5] Azərbaycan Respublikasının Mülki Prosessual Məcəlləsində dəyişiklik edilməsi haqqında Qanun (2021). Burada bax: http://e-qanun.az/framework/48016 (son baxış 18 yanvar 2023).

formaların tətbiqinin əhatə dairəsi proseslərin növləri üzrə məhdudlaşdırılmamışdır. Onlar yalnız instansiya aidiyyətinə əsasən, yəni apellyasiya və kassasiya instansiyalarında baxışda olmasından asılı olaraq tətbiq edilir. Prosesin sadələşdirilməsi məqsədilə forma tələbinin mövcud olmasına baxmayaraq, onların istifadəsi zamanı tərəflər yenə bütün məlumatları əvvəlki qaydada, struktursuz əlavə edirlər.

Qeyd edilən problemin həlli üçün hüquq ədəbiyyatında bənzər formaların tətbiqi ilə bağlı bir sıra məsələlər müzakirə edilir. Həmin müzakirələr məqalənin davamında öz əksini tapmışdır. Bunlardan ən önəmlisi qeyd edilən yeniliklərin tətbiqi zamanı ədalət mühakiməsinə çıxışın asanlaşdırılması, yoxsa tam əksinə olaraq çətinləşdirilməsi ilə bağlı olan müzakirələrdir. Digər məsələ isə formaların tətbiqinin əhatə dairəsi ilə bağlıdır. Burada iki cür yanaşma mümkündür: birincisi, onların tətbiqini bütün növ proseslərə şamil etmək və ikincisi, yalnız müəyyən növ mübahisələrdə tətbiq etmək.

Alman qanunvericiliyində də mülki prosessual hüquq sahəsində strukturlaşdırma və formaların tətbiqi ilə bağlı bənzər dəyişikliklər edilmiş, islahatlar zamanı qeyd edilmiş məsələlər ətraflı müzakirə olunmuşdur. Hazırkı məqalənin əsas məqsədi isə Azərbaycan oxucusunun diqqətinə islahatlar zamanı ortaya çıxan yanaşmanı göstərmək, həmçinin potensial üstünlük və problemlər barədə xəbərdar etməkdir.

## I. Strukturlaşdırma

Alman müki prosesində strukturlaşdırma ilə bağlı bir neçə cəhd olmuşdur. Bunlardan ilki "Ştutqart Modeli" adı ilə tanınmışdır.[6] Bu modelin ideyası proses iştirakçılarının təqdim etdiyi materialların təsvirini bir elektron faylda birləşdirmək idi. Məqsəd isə faylların rəqəmsal idarə olunmasının təmin edilməsinə yönəlmişdi. O həmçinin ərizələrin bloklara, digər sözlərlə tərkib hissələrinə və iddianın özünün ətraflı şəkildə strukturlaşdırılmasını nəzərdə tuturdu.[7]

Struktur üçün şablon formaların hazırlanması elektron məlumatları emal edən proqram təminatının yaradılması üçün ilkin şərt idi. Bu proqram proses materiallarını istifadəçinin istəyinə uyğun şəkilləndirə və eyni zamanda xronoloji olaraq nümayiş etdirə bilirdi. Qeyd edilmiş təklif rədd edilsə də, onun müəyyən elementləri keçirilmiş islahatlarda öz əksini tapmışdır.

2020-ci il islahatları zamanı dəyişdirilən maddələrdən biri də Alman Mülki Prosessual Məcəlləsinin ("Zivilprozessordnung") (bundan sonra "ZPO") 139-cu maddəsi idi.[8] Dəyişikliyə əsasən, 139.1-ci paraqrafın 1 yanvar 2020-ci il tarixindən qüvvəyə minən yeni redaksiyasına üçüncü cümlə əlavə edilmişdir.

[6] Bender, yuxarıda istinad 2.
[7] Yenə orada, 374-376.
[8] Daha ətraflı bax: Hendrik Schultzky, *Die "kleine" ZPO-Reform 2020*, 74 Monatschrift für Deutsches Recht (2020).

Həmin əlavəyə görə məhkəməyə icraatı strukturlaşdırma və işə baxılması zamanı işin tərkib hissələrinə bölünməsi səlahiyyətləri verilmişdir. Burada qanunverici orqan iki elementi: strukturlaşdırmanı və bölünməni fərqləndirir. Belə ki, bölünmə dedikdə, baxış mərhələsində, məsələn, bir neçə iddiadan ibarət mürəkkəb mübahisənin daha sadə tərkib hissələrinə bölünməsi və baxışın həmin hissələr üzrə ardıcıl olaraq aparılması nəzərdə tutulur.[9]

Müvafiq olaraq, strukturlaşdırma, bir qayda olaraq, hərfi mənadan irəli gələrək mübahisəli məsələnin deyil, icraatın strukturlaşdırılması kimi başa düşülür. Burada nəzərdə tutulan məhkəmə işinin bir neçə prosessual addıma bölünməsidir. Bununla da, məhkəmə tərəflərdən mübahisənin hər bir mərhələsində yalnız həmin mərhələyə aid prosessual hərəkətlərlə kifayətlənmələrini tələb edə bilər. Bu norma prosedurun, yəni prosesin xarici təzahürünün formalaşdırılması (formal və ya vertikal strukturlaşdırma) deyil, onun maddi mənada, yəni mübahisəli məsələnin özünün strukturlaşdırılmasını (horizontal strukturlaştırılma) nəzərdə tutur.

## A. Tərəflərin ərizələrinin tərtib edilməsi

Alman mülki prosessual hüququ iddia ərizələrinin məzmununun strukturlaşdırılması üçün bir sıra tələblər nəzərdə tutur. Burada ümumi olaraq bütün ərizələrə[10] və ya xüsusilə, iddia ərizələrinə[11] münasibətdə nəzərdə tutulan tələblər arasında fərqləndirmə aparmaq mümkündür. Birinci qrup, yəni ümumi olaraq bütün sənədlərə münasibətdə irəli sürülən tələblərə riayət edilməməsi ərizənin birbaşa etibarsızlığına səbəb olmur.[12]

Mülki qanunvericilikdə islahatlar "Mülki Prosessual Hüququn Müasirləşdirilməsi" üzrə İşçi Qrupuna həvalə edilmişdir. Həmin qrupun ortaya qoyduğu yanaşmaya uyğun olaraq, tərəflərin iddiaları "əsas sənəd" adlandırılan ümumi bir sənəddə toplanılmalıdır. Bu sənəd həm tərəflər, həm də məhkəmə üçün real vaxt rejimində əlçatandır. Tərəflərin təqdimatı isə iki hissəyə bölünür: faktiki və hüquqi faktlar.[13] Struktur iddia tələbinin qanuni əsaslarına görə deyil, işin hallarına görə, xronoloji ardıcıllıqda qeyd edilməlidir.

---

9 Reinhard Gaier, *Strukturiertes Parteivorbringen im Zivilprozess*, 48 Zeitschrift für Rechtspolitik 101, 102 (2015).

10 "Zivilprozessordnung", yuxarıda istinad 3, § 130 (1887).

11 Yenə orada, §253.

12 Bu qrup tələblər "Soll-Vorschrift" olaraq adlandırılır. Qeyd edilən normalar müəyyən edilən tələblərə riayət edilmədiyi təqdirdə belə (məsələn, qarşı tərəfin ad, soyadının qeyd edilməsi zamanı qrammatik səhvə yol verilməsi), proses zamanı çatışmazlıqların aradan qaldırılmasını mümkün edir. Digər qrup isə "Muss-Vorschrift" kimi adlandırılır və bu tələblər gözlənilmədikdə ərizə dərhal geri qaytarılır.

13 Modernisierung des Zivilprozesses, Diskussionspapier, bölmə V. Burada bax: https://www.justiz.bayern.de/media/images/behoerden-und-gerichte/oberlandesgerichte/nuernberg/diskussionspapier_ag_modernisierung.pdf, (son baxış 11 sentyabr 2022).

Bununla belə, ərizədə hüquqi qiymətləndirmənin olması məcburi deyildir.[14] Belə ki, mülki prosesin prinsiplərinə uyğun olaraq tərəflər yalnız faktların müəyyən edilməsinə cavabdehdir, onların qiymətləndirilməsi isə məhkəmənin səlahiyyətindədir. Səlahiyyətlərin bu formada bölgüsünün səbəbi isə alman mülki prosesinin inkvizitor xarakterini əks etdirən *iura novit curia* prinsipidir.

## B. Horizontal strukturlaşdırma

Prosesin yazılı hissəsinin səmərəliliyi üçün yalnız tərəflərin ərizələrinin vertikal strukturlaşdırılması yetərli deyildir. Burada ərizələrin tərkibi (horizontal) strukturlaşdırılması da əhəmiyyətlidir. Horizontal strukturlaştırma dedikdə ərizənin tərkibinin müəyyən edilmiş hüquqi əsaslara uyğun olaraq tərtib edilməsi nəzərdə tutulur. Horizontal strukturlaşdırma tələbi ZPO-nun 139-cu paraqrafının birinci abzasının üçüncü cümləsindən irəli gələn bir tələbdir. Həmin paraqraf məhkəmə tərəfindən prosesin maddi olaraq idarə edilməsi tələbini müəyyən edir. Strukturlaşdırmanın bu çərçivədə həyata keçirilməsi üçün müəyyən tələblər yerinə yetirilməlidir. Burada isə tələb qismində zərurilik çıxış edir. Həmin tələb hakimin proses tərəflərinə mübahisənin gedişatı ilə bağlı ümumi və hərtərəfli izah vermək öhdəliyini özündə ehtiva edir.[15]

İşçi Qrupunun təklif etdiyi strukturlaşdırma metoduna uyğun olaraq tərəflərin iddiaları və qarşılıqlı iddiaları "əsas sənəd" adlanan bir sənəddə toplanır.[16] Sənəd özlüyündə hər tərəfə məxsus iki sütundan ibarət olur və real vaxt rejimində hər bir tərəf və məhkəmə üçün əlçatandır. Sənəddə tərəflər öz iddialarını baş verən mübahisə predmetinin faktlarına uyğun xronoloji olaraq qeyd edirlər. Tərəflərin mübahisə predmetini hüquqi cəhətdən qiymətləndirməsi məcburi deyildir, lakin predmətə əlavələrin olunması da istisna edilmir.[17]

## C. Şablonlar və onların tətbiq dairəsi

İddia ərizəsinin strukturlaşdırılması zamanı şablonların tətbiqi mümkün alətlərdən biri kimi çıxış edir. Strukturlaşdırma müxtəlif əsaslara uyğun olaraq həyata keçirilə bilər. Bu istiqamətdə mümkün variantlardan biri kimi tərəflərin ərizələrinin xronoloji strukturlaşdırılması, əvvəlcədən müəyyən edilmiş şablonlara uyğun olaraq həyata keçirilməsi göstərilə bilər.[18]

Şablonların və ümumi olaraq strukturlaşdırmanın tətbiqi ilə bağlı yaranan digər suallardan biri də onların məcburililiyi və hansı növ proseslərdə tətbiq edilməsi ilə bağlıdır. Bir qayda olaraq, vəkillərin iştirakının məcburi olduğu

[14] Yenə orada, 38.
[15] Reinhard Gaier, *Erweiterte Prozessleitung im zivilgerichtlichen Verfahren, Strukturierung und Abschichtung nach § 139 I 3 ZPO*, 4 Neue Juristische Wochenschrift 177, 179 (2020).
[16] Modernisierung des Zivilprozesses, yuxarıda istinad 13, 35.
[17] Yenə orada, 38.
[18] Yenə orada, 37.

proseslərdə strukturlaşdırma məhkəmənin və ya tərəflərin iradəsindən asılı olmayaraq məcburi müəyyən edilir, eyni zamanda, onların digər proseslərdə də təyin edilməsi istisna edilmir.[19] Bununla yanaşı, alman qanunvericiliyinə əsasən, bir qayda olaraq, ilk instansiya məhkəmələrində tərəflərin vəkillər tərəfindən təmsil edilməsi məcburi deyildir.[20]

Əlavə olaraq, kütləvi xarakter daşıyan və ya müəyyən ortaq meyarlar üzrə qruplaşdırılması mümkün olan hallara aid mübahisələrdə, məsələn, sığorta, istehlakçı, icarə və ya əmək mübahisələrində şablonların, bir qayda olaraq, tətbiq edilməsi mümkün təkliflər siyahısındadır.[21] Bunun üçün müvafiq şablonlar təsdiq edilməlidir. Bu yanaşmanı dəstəkləyənlər ZPO-nun 130c paraqrafında Federal Ədliyyə və İstehlakçıların Hüquqlarının Müdafiəsi Nazirliyinin ("BMJV") nəzərdə tutulmuş şablonları müəyyən etmək səlahiyyətinə istinad edirlər. Məhkəmənin iş yükünün mümkün qədər azaldılması və mübahisələrin həll edilməsi tezliyinin artırılmasına baxmayaraq, qeyd edilən yanaşma hüquq ədəbiyyatında birmənalı olaraq qarşılanmır.[22] Səbəb qismində isə ilk olaraq həmin şablonların tərtib edilməsinin çətinliyi, digər tərəfdən, tərəflərin səmərəsiz istifadə imkanları göstərilmişdir.

Həmçinin məhkəmənin öz mülahizəsinə uyğun olaraq "normal" prosedura qayıtmaq barədə göstəriş vermək səlahiyyəti də nəzərdə tutulmuşdur.[23] Belə ki, hakim baxılan işin mürəkkəblik səviyyəsinin yüksək olmasına istinad edərək şablonların tətbiqindən imtina edə bilər.[24]

## II. Tənqid və risklər

İşçi Qrupu tərəfindən təklif edilən strukturlaşdırma hüquq ədəbiyyatı tərəfindən birmənalı olaraq qarşılanmamışdır. Müzakirələr nəticəsində strukturlaşdırmanın tətbiq edilməsində texniki imkanlardan istifadədən şablonların əhatə dairəsinə və onların düzgün icra edilməməsi və ya ümumiyyətlə, icra edilməməsi halında nəzərdə tutulan sanksiyalaradək müxtəlif tənqidi fikirlər səsləndirilmişdir. Bu hissədə həmin yeniliklərin tətbiqi istiqamətində mümkün tənqid və risklər müzakirə ediləcəkdir. Bu istiqamətdə ilkin olaraq rəqəmsal imkanların bu prosesdə hansı yer tutması, şablonların ədalətə çıxış prinsipinə təsiri və müəyyən edilən qaydalar riayət edilməməsi halında hansı sanksiyaların nəzərdə tutulması müzakirə ediləcəkdir.

[19] Yenə orada, 35.
[20] Yuxarıda istinad 10, § 78.
[21] Mathias Weller, Ralf Köbler, Verfahrensgrundsätze und Modellregeln für die grundsätzlich elektronische Führung gerichtlicher Erkenntnisverfahren, 94 (2006).
[22] Bax: Reinhard Gaier, yuxarıda istinad 15, 180; Dəstəkləyənlər: Mathias Weller, Ralf Köbler, yuxarıda istinad 21; Burkhard Hess, § 2 Die Rechtsetzungskompetenzen der Union im Prozessrecht Europäisches Zivilprozessrecht, 1 (2020).
[23] Yuxarıda istinad 13, 36.
[24] Yenə orada, 13.

## A. Texniki imkanların tətbiqi

Başlanğıcda rəqəmsal vasitələrin dəstəyi ilə strukturlaşdırma ideyası tənqidlə qarşılanmışdı. Bu tənqidlər, əsasən, texniki vasitələrdən istifadənin həcmi ilə bağlı idi. İrəli sürülmüş arqument isə strukturlaşdırmanın təklif edildiyi formada tətbiqinin səmərəsiz olması idi.[25] Bu proses məhkəmə aktlarının tərtib edilməsi zamanı göndərilən ərizələrin elektron formada dəyişiklik edilmədən köçürülməsindən ibarətdir. Nəticədə, bu, texniki imkanların tətbiqinin məhdudlaşdırılmasına səbəb olur. Bu da öz növbəsində, təklif edilən yeniliyin sadəcə kağız sənədlərin elektron illüstrasiyasına bərabər olmasına dəlalət edir.

Buna görə də rəqəmsal imkanlardan daha səmərəli istifadə edilməsi təklif edilirdi. Məsələn, mübahisə ilə bağlı aidiyyəti faktların müvafiq sistemə daxil edilməsindən sonra süni intellekt bu məlumatlar əsasında mümkün məhkəmə qərarı layihəsini tərtib edə bilər. Bu nümunə məcburi qüvvəyə malik deyildir və yalnız hakimin fəaliyyətinə dəstək xarakterlidir.[26] Qeyd edilən təkliflər Alman prosessual hüququnda irəliləyiş kimi qiymətləndirilsə də, Almaniya Federativ Respublikasının Konstitusiyasının 92-ci maddəsinin mümkün pozulması səbəbindən rədd edilmişdir.[27] Konstitusiya mübahisəni həll etmək vəzifəsini hakimə həvalə edir. Texniki təchiz olunmuş sistemlərin, məsələn, süni intellektin istifadə edilməsi bu maddənin müddəalarını poza bilər. Yəni burada elektron sistem Konstitusiyada nəzərdə tutulan "hakim" anlayışına bərabər tutulmur. Bu da öz növbəsində, texniki imkanların tətbiqini məhdudlaşdırır. Təkliflərin rədd edilməsinin hüquqi əsaslandırılması ağlabatan səslənsə də, rəqəmsal imkanların birbaşa istisna edilməməsi, onun bəzi elementlərini bu sahəyə inteqrasiya edilməsi, ən azından onların ətraflı müzakirəsi məqsədəuyğundur.

Bəzi ölkələr artıq süni intellekti məhkəmələrin işini yüngülləşdirməyə və şəffaflığın artırılmasına yönəlmiş alət kimi nəzərdən keçirir.[28] Süni intellekt qərarların qəbulunda köməkçi kimi də istifadə edilə bilər.[29] Bununla belə, bəzi yurisdiksiyalar qərar qəbuletmə mərhələsində hüquqi texnoloji vasitələrdən istifadə ideyasını, ümumiyyətlə, rədd edir. Məsələn, 2019-cu ildə Fransada qəbul edilən qanuna əsasən, məhkəmə qərarını proqnozlaşdıra bilən

[25] Reinhard Greger, *Der Zivilprozess auf dem Weg in die digitale Sackgasse*, 47 Neue Juristische Wochenschrift 3429, 3430 (2019).
[26] Daniel Effer-Uhe, *Strukturierter Parteivortrag im elektronischen Zivilprozess*, 1 Zeitschrift für das gesamte Verfahrensrecht 6, 12 (2018).
[27] Yuxarıda istinad 13, 7.
[28] Burada nümunə qismində Kanada göstərilə bilər; Bax: Directive on Automatic Decision-Making of the Government of Canada (2019). Burada bax: https://www.tbs-sct.gc.ca/pol/doc-eng.aspx?id=32592 (son baxış 11 sentyabr 2022).
[29] Carolin Kemper, *Kafkaesque AI? Legal Decision-Making in the Era of Machine Learning*, 24 Intellectual Property and Technology Law Journal 251, 260 (2020).

alətlərdən istifadə qadağan edilmişdir.[30] Hətta bunun üçün cinayət məsuliyyəti də nəzərdə tutulmuşdur.

## B. Şablonların tətbiqinin ədalətə çatıma təsiri

Bir tərəfdən, tərəflərin iştirak etdiyi prosesdə şablonun mövcudluğu ədalət mühakiməsinə çıxışın asanlaşdırılması vasitəsi ola bilər.[31] Bir qayda olaraq, bunu vəkil ilə təmsil olunmayan proseslərdə müşahidə etmək mümkündür. Belə ki, tərəflər xüsusi hüquqi təhsilə sahib olmadıqlarından iddia ərizələrinin yazılması ilə bağlı zəruri biliklərə malik deyildirlər.[32] Şablonların tətbiq edilməsi isə onların işini əhəmiyyətli dərəcədə yüngülləşdirə bilər. Bununla belə, bu istiqamətdə şablonların bütün növ məhkəmə mübahisələrində tətbiq edilməsi qeyri-real görünür. Burada müxtəlif ümumi xüsusiyyətlərə sahib və eyni zamanda kütləvi xarakter daşıyan işlər arasında qruplaşdırma aparmaq olar. Məsələn, sığorta hadisəsinin baş verməsi və ya istehlakçı hüquqlarının pozulması nəticəsində yaranan məhkəmə mübahisələri belə işlərə nümunə ola bilər. Müvafiq olaraq, yuxarıda göstərildiyi kimi bənzər cəhətlər üzrə ümumiləşdirilən hər bir iş qrupuna aid olan zəruri faktların, başqa sözlə, şərtlərin siyahısı müəyyən edilə bilər. Bu halda iddiaçı şablondakı yalnız müvafiq sahələri doldurmalıdır. Növbəti addım olaraq isə süni intellekt bütün lazımi sahələrin doldurulub-doldurulmadığını və ya əsaslandırılma dərəcəsini yoxlayacaqdır.

Qeyd edilən bütün bu problemlərin aradan qaldırılması mümkündür. Hər bir işin xüsusiyyətlərini əhatə etmək üçün şablonlarda zəruri xanalarla yanaşı, əlavə sahələr də nəzərdə tutula bilər. Bununla da, bu sahədə tərəflər həmin işi bütün digər işlərdən fərqləndirdiyini hesab etdikləri məqamları qeyd edə bilərlər. Şablonların tətbiqi vəsatətin məhkəmə tərəfindən yoxlanılmasını istisna etmir. İddia ərizəsinin səhv doldurulduğu halda isə məhkəmə özünün maddi prosesin idarə edilməsi öhdəlikləri çərçivəsində bu barədə tərəfi məlumatlandırmaqla şablonların tətbiqini aradan qaldıra bilər.

## C. Sanksiyanın nəzərdə tutulmaması

Normanın tətbiqinin təmin edilməsi onun tərtibindən və qüvvəyə minməsindən sonra gələn ən mühüm vəzifədir. İcranın təmin edilməsinin əvəzsiz elementlərindən biri qismində onun icra edilməməsi halında baş verə biləcək mümkün sanksiyaların nəzərdə tutulması çıxış edir. Strukturlaşdırma təklifi qaydalara əməl edilməməsinə görə sanksiya nəzərdə tutmadığına görə

[30] Malcolm, Langford, Mikael Rask Madsen, France Criminalises Research on Judges (2019), https://verfassungsblog.de/france-criminalises-research-on-judges/ (son baxış 11 sentyabr 2022); LOI n° 2019-222 du 23 mars 2019 de programmation 2018-2022 et de réforme pour la justice, mad. 33 (2019). Burada bax: https://www.legifrance.gouv.fr/jorf/article_jo/JORFARTI000038261761?r=3LmMkQwI17 (son baxış 11 sentyabr 2022).

[31] Yuxarıda istinad 21.

[32] Florian Specht, *Chancen und Risiken einer digitalen Justiz für den Zivilprozess Vor- und Nachteile von außergerichtlichen Konfliktlösungsmöglichkeiten*, 3 Multimedia und Recht 153, 157 (2019).

tənqid edilir.[33] Hətta müvafiq qərarın[34] və işçi qrupunun təklifi strukturlaşdırmanı zəruri etsə belə, onun pozulması heç bir mənfi sanksiyaya səbəb olmur. Bunun səbəbi isə strukturlaşdırmanın yalnız mövcud qaydalara əlavə stimul qismində başa düşülməsidir.[35]

Müxtəlif yurisdiksiyalar bu məsələ ilə bağlı fərqli yanaşmalara sahibdirlər. Nümunə olaraq, ingilis hüququnda hakimin strukturlaşdırma öhdəliklərinə əməl edilməməsi halında sanksiya təyin etmə səlahiyyəti vardır.[36] Ancaq bu səlahiyyətin əhatə dairəsi hələ də mübahisəlidir. Məhkəmə iddianın rədd edilməsi ilə maddi sanksiyanın təyin edilməsi (məsələn, prosessual xərclərin ödənilməsini tam olaraq bir tərəfin üzərinə qoyulması) arasında seçim edə bilər.[37]

Fransız hüququ isə strukturlaşdırmanın bütün müvafiq səviyyələrində tətbiq edilməsini təmin edəcək aydın sanksiyalar sisteminə malik olmaması səbəbindən tənqid edilir.[38] Belə ki, fransız mülki prosessual hüququna uyğun olaraq burada sanksiyalar yalnız bir halda təyin edilə bilər. Bu da iddia ərizəsində xülasənin olmaması halında müşahidə edilir.[39]

## Nəticə

Yeniliklərin tətbiqindən göründüyü kimi, tərəflərin ərizələrinin strukturlaşdırılması ideyası bir çox hüquq sistemində öz əksini tapmasına baxmayaraq, bu sahədə hələ də bir sıra qeyri-müəyyənliklər mövcuddur. Bunlara strukturlaşdırmanın hansı həcmdə, yəni hansı növ işlərdə tətbiq edilməsindən başlayaraq, rəqəmsal imkanların bu prosesdəki rolunadək olan bir sıra məsələlər aiddir. Əlavə olaraq, texniki vasitələrin, xüsusilə də süni intellektin tətbiq edilməsi müxtəlif fundamental sualların ortaya çıxmasına səbəb olur. Belə ki, burada hakimin prosesin idarə edilməsində konstitusiya ilə müəyyən edilmiş rolu və mülki prosessual hüququn fundamental prinsipləri ilə ziddiyyətlərin yaranması aşkar edilmişdir. Bu səbəbdən də texniki vasitələr ilə müxtəlif yeniliklərin tətbiq edilməsi, ilk növbədə, geniş müzakirə edilməli və fərqli perspektivlərdən yanaşılaraq qiymətləndirilməlidir. Hazırkı məqalə bu məqsəd üçün alman hüququnda mövcud olan müzakirələri əks etdirməyə çalışmışdır.

Azərbaycan təcrübəsində hal-hazırda formaların tətbiq edilməsi ilə bağlı yalnız instansiya meyarına görə bölgü mövcuddur. Burada alman təcrübəsində olduğu kimi, ilk növbədə müəyyən sadə və kütləvi xarakter daşıyan mübahisələrdə tətbiq edilməsi daha məqsədəuyğun hesab edilə bilər.

[33] Gaier, yuxarıda istinad 15, 177.
[34] Verhandlungen des 70. Deutschen Juristentages, 15 saylı Qərar (2014).
[35] Yuxarıda istinad 13, 31.
[36] Martin Zwickel, *Die Strukturierung von Schriftsätzen*, 16 Monatsschrift für Deutsches Recht 988, 991 (2016).
[37] Yenə orada, 991; Daha ətraflı bax: Thomas Schuster, Writ - Claim form – Klage (2006).
[38] Zwickel, yuxarıda istinad 36, 989-990.
[39] Yenə orada.